**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ**

| | |
|---|---|
| **Aktın növü:** | *Naxçıvan Muxtar Respublikasi Ali Məclisi Sədrinin Fərmanı* |
| **Qəbul edildiyi tarix:** | *18.02.2011* |
| **Qeydiyyat nömrəsi:** | *8-IV FR* |
| **Adı:** | *Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bəzi fərman və sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi haqqında* |
| **Rəsmi dərc edildiyi mənbə:** | |
| **Qüvvəyə minmə tarixi:** | *18.02.2011* |
| **Vahid hüquqi təsnifatı üzrə indeks kodu:** | *010.180.020* |
| **Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:** | *13201102180008* |
| **Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix:** | *14.02.2012* |

# Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bəzi fərman və sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi haqqında

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## FƏRMANI

1. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollegiyasının tərkibi təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 11 yanvar tarixli 111-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin kollegiyasının tərkibi”ndən 4-cü və 7-ci bəndlər çıxarılsın, 5-ci və 6-cı bəndlər müvafiq olaraq 4-cü və 5-ci bəndlər hesab edilsin.

3.“Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 24 fevral tarixli 22-01/S nömrəli Sərəncamının 2-ci bəndindən altıncı-yeddinci və doqquzuncu-on üçüncü abzaslar çıxarılsın, səkkizinci abzas müvafiq olaraq altıncı abzas hesab edilsin.

4.“Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 14 fevral tarixli 96-01/S nömrəli Sərəncamının 1-ci bəndində:

4.1.“7 (yeddi)” rəqəmi “5” rəqəmi ilə əvəz edilsin;

4.2. altıncı və yeddinci abzaslar çıxarılsın, səkkizinci abzas müvafiq olaraq altıncı abzas hesab edilsin;

4.3. "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilati-İnspektor Şöbəsinin rəisi" sözləri "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilati-inspektor idarəsinin rəisi"sözləri ilə əvəz edilsin.

5. "Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 fevral tarixli 179-01/S nömrəli Sərəncamının 1-ci bəndində:

5.1. "7 (yeddi)" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

5.2. altıncı-səkkizinci abzaslar çıxarılsın;

5.3. "İnspektorluğun rəisi" sözlərindən əvvəl "Əks-kəşfiyyat idarəsinin rəisi" sözləri əlavə edilsin.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 18 fevral 2011-ci il

№ 8-IV FR

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 18 fevral tarixli 8-IV FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollegiyasının**

**T Ə R K İ B İ**

**Kollegiyanın sədri:**

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar nazirinin müavini
Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Kadrlar şöbəsinin rəisi
Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Əməliyyat şöbəsinin rəisi
Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi